UOT 32:004.738.5
https://doi.org/10.30546/3006-0346.2025.3.87.570

# ELEKTRON DEMOKRATİYA: MÜASİR SİYASİ İDARƏETMƏNİN YENİ FORMASI

**TURAN YUSUBOV**
*Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutunun doktorantı*
*E-mail: turanyusubov088@gmail.com*

## Giriş

Müasir informasiya-kommunikasiya texnologiyalarının (İKT) sürətli inkişafı, siyasi proseslərə dair ənənəvi çərçivələri yenidən formalaşdıraraq demokratik iştirakçılığın strukturuna ciddi təsir göstərir. Bu istiqamətdə ortaya çıxan elektron demokratiya (e-demokratiya) anlayışı yalnız texnoloji innovasiyalara əsaslanmır, həm də demokratik legitimliyi gücləndirmək, şəffaflığı təmin etmək və sivil cəmiyyətin qərar qəbuletmə proseslərində fəallığını artırmağı hədəfləyir [1]. Klassik demokratiya modellərində dövlətin qərarları "top-down" formatında qəbul edildiyi halda, elektron demokratiya buna qarşı olaraq vətəndaş iştirakını "bottom-up" formada təşviq edir və deliberativ sosiopolitik məkan yaradır [3].

Elektron demokratiya mövzusunun aktuallığı həm dünya praktikasında, həm də ölkəmizdə qabarıq şəkildə hiss olunur. Estoniya, Danimarka, İsveç kimi qabaqcıl ölkələrdə bu sistemlər seçki və idarəetmədə rəqəmsal həllərdən müvəffəqiyyətlə istifadə edir. Azərbaycan isə e-hökumət infrastrukturu və “ASAN xidmət”lə elektron xidmətlər sahəsində müəyyən irəliləyişlər əldə edib, lakin e-demokratiya institusional baxımdan hələ də inkişaf mərhələsindədir. Məqalədə e-demokratiyanın nəzəri əsasları, mexanizmləri, infrastruktur və hüquqi baza aspektləri, rəqəmsal uçurum probleminin qarşısının alınması və Azərbaycan kontekstində tətbiqinin perspektivləri elmi-nəzəri səviyyədə araşdırılır.

E-demokratiya anlayışı siyasi nəzəriyyədə deliberativ demokratiyanın (deliberative democracy) və interaktiv texnologiyaların sintezi kimi təqdim olunur. J. Dryzek və L. Dahlberg bu sahədə texnologiyanın deliberasiya və ictimai rəy formalaşmasında əsas rol oynadığını vurğulayır, bunun da siyasi qərarların demokratik legitimliyini artırdığını qeyd edir. Elmi təcrübələr göstərir ki, e-demokratiya yalnız kommunikativ alət deyil, həm də siyasi sosiallaşmanın və ictimai-mədəni normativlərin formalaşmasına xidmət edir [3].

E-demokratiyanın elmi əsasları arasında siyasi legitimlik, ictimai aktivlik, rəqəmsal vətəndaşlıq və demokratik şəbəkələr konseptləri mühüm yer tutur. Aksel Honnetin tanınmış sosiopolitik nəzəriyyəsi ilə demokratik deliberasiya arasında əlaqə qurmaq mümkündür. Vətəndaşların media və onlayn mühitdə fəal iştirakı siyasi cəmiyyətdə tanınma hüququnun genişləndirilməsi mənasını daşıyır. Siyasi nəzəriyyə bu modelin legitimliyin baza mexanizmi olduğunu vurğulayır, çünki e-demokratiya vətəndaşların səsini əhatə edən, şəffaflığı artıran və dövlət-vətəndaş münasibətlərində qarşılıqlı etimadı gücləndirən struktur formatıdır [2].

## E-DEMOKRATİYA VƏ E-DÖVLƏT: KONSEPTUAL FƏRQLƏR VƏ ƏLAQƏLƏR

E-dövlət və e-demokratiya anlayışları rəqəmsal texnologiyaların tətbiq olunduğu siyasi idarəetmə modelləri kimi səciyyələndirilsə də, onların məqsəd, funksional yönümlər və nəzəri əsaslar baxımından ciddi fərqləri mövcuddur. Bəzən bu iki model bir-birinin alternativi kimi təqdim edilsə də, elmi araşdırmalar onların mahiyyətcə komplementar, yəni bir-birini tamamlayan sistemlər olduğunu göstərir [1].

E-dövlət əsasən dövlətin öz funksiyalarını daha səmərəli, şəffaf və çevik şəkildə yerinə yetirməsinə yönəlib. O, ictimai xidmətlərin rəqəmsallaşdırılması, idarəetmədə texnoloji optimizasiya, vətəndaşlara elektron vasitələrlə xidmətlərin göstərilməsi və bürokratik yüklərin azaldılması kimi funksiyaları əhatə edir [1]. Burada əsas vurğu idarəetmənin keyfiyyətinin artırılmasına və dövlət resurslarının effektiv istifadəsinə yönəlir. Bunun əksinə olaraq, e-demokratiya ictimai iştirakçılığı, deliberativ prosesləri və vətəndaşların siyasi qərar qəbuletmə prosesinə inteqrasiyasını təşviq edən modeldir. E-demokratiya vasitəsilə vətəndaşlar yalnız xidmət istifadəçisi deyil, eyni zamanda qərarların formalaşmasında aktiv iştirakçıya çevrilir. Bu modeldə ictimai rəyin toplanması, müzakirə forumlarının təşkili, onlayn petisiyalar, ictimai sorğular və elektron səsvermə kimi elementlər ön plana çıxır [4].

E-dövlət modelində texnoloji infrastruktur (məsələn, vahid xidmət portalları, rəqəmsal arxivlər, e-imza sistemləri) əsas rol oynayır. Bu struktur-

lar vətəndaşlarla dövlət arasında "xidmət yönümlü" münasibət qurur: vətəndaş tələbatını bildirir, dövlət isə ona xidmət göstərir. E-demokratiya isə bu infrastruktura əsaslanaraq vətəndaşı qərarların formalaşdırılması prosesinə daha dərindən cəlb edir. Məsələn, e-dövlət portalı vasitəsilə sənəd təqdim etmək mümkündürsə, e-demokratiya platformasında həmin sənədin qanunvericilikdə əksini tapması üçün ictimai təzyiq və konsensus yaratmaq mümkündür [5]. Bununla yanaşı, e-dövlətin hüquqi bazası daha çox inzibati idarəetmə aktları, rəqəmsal identifikasiya sistemləri və xidmət göstərmə mexanizmləri ilə tənzimlənir. Burada dövlətin funksional effektivliyi və informasiya təhlükəsizliyi ön plandadır. E-demokratiya isə daha geniş demokratik hüquqlar – söz azadlığı, birləşmə azadlığı, seçki hüququ və iştirak hüququ ilə bağlıdır. Bu səbəbdən, elektron demokratiya institutları daha çox Konstitusiya normaları və insan hüquqları çərçivəsində formalaşdırılır. Hər iki model arasında struktur fərqlər olsa da, bu sistemlər bir-birindən asılı və qarşılıqlı gücləndirici xarakter daşıyır. Güclü e-dövlət infrastrukturu elektron demokratiya təşəbbüsləri üçün zəruri texnoloji baza yaradır. Məsələn, elektron səsvermə yalnız inkişaf etmiş identifikasiya sistemləri (məsələn, "ASAN İmza") üzərində mümkündür [6]. Eyni zamanda, vətəndaş iştirakına yönəlmiş demokratik modellər olmadan e-dövlət sadəcə texnoloji idarəetmə vasitəsinə çevrilə bilər, yəni demokratik legitimlik qazanmaya bilər [2].

## FUNKSİONAL MEXANİZMLƏR

Elektron demokratiyanın praktik təzahürləri əsasən üç əsas funksional istiqamətdə cəmlənir: elektron iştirak (e-participation), elektron səsvermə (e-voting) və açıq hökumət məlumatları (open government data). Bu alt-mexanizmlər rəqəmsal texnologiyaların siyasi iştirak və hesabatlılıq sahələrində tətbiqini mümkün edən əsas sütunlar kimi çıxış edir.

E-participation - vətəndaşların rəqəmsal vasitələrlə ictimai müzakirə və qərar qəbuletmə proseslərinə cəlb olunması üçün nəzərdə tutulmuş mexanizmlər toplusudur. Bu modelin əsas üstünlüyü - coğrafi, sosial və ya fiziki baryerləri aradan qaldıraraq daha geniş əhali kütləsinin proseslərə cəlbini mümkün etməsidir. E-participation həm deliberativ demokratiya, həm də iştirakçı demokratiya modellərinin rəqəmsal formasını təşkil edir [3]. Ən geniş tətbiq sahəsi kimi onlayn petisiyalar, açıq ictimai forumlar və tematik müzakirə platformaları göstərilə bilər. Bu vasitələr sayəsində vətəndaşlar qanun layihələri, icra qərarları və ya ictimai maraq doğuran məsələlərlə bağlı öz fikirlərini bildirə, birbaşa təşəbbüslə çıxış edə bilirlər. Misal üçün, Finlandiyada tətbiq edilən "OmaKunta" platforması vətəndaşlara yerli özünüidarəetmə orqanlarına rəqəmsal təkliflər və şikayətlər göndərmək imkanı yaradır. Digər bir nümunə Estoniyada fəaliyyət göstərən "Rahvakogu" (Xalq Məclisi) platformasıdır ki, burada siyasi islahatlara dair təkliflər geniş ictimai müzakirəyə çıxarılır və hökumətə təqdim olunur. Bu model yüz minlərlə vətəndaşı əhatə edərək plüralist iştirak formalarını gücləndirir [4].

E-voting - vətəndaşların ənənəvi seçki məntəqələrinə getmədən, səsvermə hüququndan rəqəmsal platformalar üzərindən istifadə etmələrinə imkan verən modeldir. Bu model seçkilərin çevikliyini və əlçatanlığını artırmaqla yanaşı, həm də seçici fəallığını yüksəldə bilər. Estoniya, İsveçrə, Kanada və bəzi Skandinaviya ölkələri bu texnologiyanı sınaqdan keçirən və ya tətbiq edən öncül nümunələrdəndir [5]. Estoniyanın e-səsvermə sistemi xüsusilə diqqətəlayiqdir. Bu model "blind server architecture" adlanan texnologiyaya əsaslanaraq seçki məxfiliyini təmin edir. Rəqəmsal imzalar və şəxsiyyətin identifikasiyası üçün "e-ID" sistemindən istifadə edilir. Vətəndaşlar evlərindən çıxmadan, şəxsiyyətlərini təsdiqlədikdən sonra səs verə bilirlər. Eyni zamanda, seçici sonuncu səsini dəyişmək imkanına malikdir, bu da sistemin dinamizmini artırır. Bu texnologiyanın digər üstünlükləri sırasında fiziki məhdudiyyətləri olan şəxslərin səsvermə hüququnun daha rahat təmin olunması, xaricdə yaşayan vətəndaşların daha asan iştirak imkanları, səslərin avtomatik sayılması və nəticələrin daha tez açıqlanması, seçki saxtakarlığına qarşı blokçeyn və multi-server təhlükəsizlik arxitekturaları və s. cəhətlər göstərilə bilər. Bununla belə, e-səsvermə modellərinin qarşısında duran əsas çağırışlardan biri - sistemə ictimai etimadın formalaşdırılmasıdır. Texniki etibarlılıqla yanaşı, vətəndaşların səsvermənin şəffaf və saxtakarlıqdan uzaq olduğunu dərk etməsi də vacibdir [6].

Açıq hökumət məlumatları (Open Government Data — OGD) modeli dövlətin əlində olan informasiyanın ictimaiyyətə açıq şəkildə təqdim olunmasını nəzərdə tutur. Bu model informasiya asimmetriyasını azaldaraq vətəndaşların və qeyri-hökumət aktor-

larının qərar qəbuletmə prosesini izləməsini və ona təsir etməsini mümkün edir [7]. Dünya Bankı, BMT və OECD kimi qurumlar açıq məlumatların korrupsiya ilə mübarizədə, ictimai nəzarətin təmin edilməsində və qərarların legitimliyinin artırılmasında böyük rol oynadığını qeyd edirlər. Açıq məlumat bazaları media, akademik çevrələr, vətəndaş cəmiyyəti təşkilatları və startaplar tərəfindən təhlil və istifadə edilə bilər. Bu modelin nümunəvi tətbiqlərinə aşağıdakılar daxildir:

- Büdcə xərclərinin onlayn yayımlanması (məsələn, Gürcüstanda "Budget Monitor");
- Şəffaf dövlət satınalmaları (məsələn, Ukraynada "ProZorro" platforması);
- Statistik göstəricilərin interaktiv təqdimatı (məsələn, OECD-nin "Data Explorer" xidməti).

Açıq məlumatlar təkcə hökumətin hesabatlılığını artırmaqla kifayətlənmir, eyni zamanda texnoloji innovasiyalara və vətəndaş təşəbbüslərinə də zəmin yaradır. Azərbaycanda da bu sahədə ilkin təşəbbüslər olsa da, məlumatların maşınoxunaqlı formatda təqdimatı və real zamanlı yenilənməsi hələ də ciddi çağırış olaraq qalır [8].

## BEYNƏLXALQ TƏCRÜBƏ VƏ AZƏRBAYCAN MODELİ

Elektron demokratiya praktikalarının dünya miqyasında tətbiqi fərqli siyasi, hüquqi və texnoloji kontekstlərə uyğun şəkildə formalaşır. Bu baxımdan, Estoniya modeli müasir rəqəmsal idarəetmənin və vətəndaş iştirakının səmərəli sintezini nümayiş etdirdiyi üçün beynəlxalq miqyasda nümunəvi yanaşmalardan biri kimi qəbul edilə bilər. Eyni zamanda, Azərbaycan üçün də bu modelin adaptasiyası, milli xüsusiyyətlər nəzərə alınmaqla, institusional və texnoloji əsasların gücləndirilməsi baxımından dəyərli dərslər ehtiva edir.

Estoniya 1990-cı illərin sonlarında Sovet mirasından uzaqlaşaraq radikal rəqəmsallaşma strategiyasını həyata keçirmişdir. 2001-ci ildən etibarən "X-Road" adlı məlumat inteqrasiyası infrastrukturu qurularaq, müxtəlif dövlət orqanlarının rəqəmsal koordinasiyası təmin olunmuşdur. Bu texnoloji baza üzərində qurulan "e-Estonia" təşəbbüsü elektron demokratiya sahəsində aşağıdakı əsas istiqamətlərdə irəliləyişə səbəb olmuşdur:

- Elektron identifikasiya və rəqəmsal imza: Vətəndaşlar şəxsi identifikasiya kartları vasitəsilə rəqəmsal formada dövlət xidmətlərindən istifadə edə və hüquqi cəhətdən qüvvədə olan sənədlərə imza ata bilirlər. Bu sistem ictimai petisiyalar, qanun layihələrinin müzakirəsi və səsvermə kimi iştirak formalarını dəstəkləyir [3].
- Elektron səsvermə (e-voting): Estoniya 2005-ci ildən parlament və bələdiyyə seçkilərində e-səsverməni tətbiq etmiş ilk ölkədir. Vətəndaşlar bir neçə gün ərzində onlayn şəkildə, təhlükəsiz autentifikasiya vasitəsilə səs verə bilirlər. Həm də seçki günü bitənə kimi istədikləri qədər səs dəyişdirə bilirlər ki, bu da seçici qərarının çevikliyini artırır.
- Deliberativ iştirak platformaları: Estoniya hökuməti "Rahvakogu" (Xalq Məclisi) və "OSKA" kimi platformalar vasitəsilə vətəndaşları siyasi və iqtisadi məsələlərlə bağlı rəqəmsal müzakirələrə cəlb edir. Bu platformalarda toplanan fikirlər sonradan parlament müzakirəsinə çıxarılır, bəzən isə qanunvericilik təşəbbüslərinə çevrilir [4].

Estoniya modelinin müvəffəqiyyətini şərtləndirən əsas amillərdən biri - hökumət və cəmiyyət arasında etimad körpüsünün texnoloji vasitələrlə möhkəmləndirilməsidir. Rəqəmsal şəffaflıq, məlumatın əlçatanlığı və hüquqi bazanın uyğunluğu bu modelin dayanıqlığını təmin edir.

Azərbaycan rəqəmsallaşma prosesinə daha çox xidmət yönümlü dövlət platformaları vasitəsilə daxil olmuşdur. "ASAN xidmət" bu sahədəki uğurlu nümunədir. 2012-ci ildən tətbiq edilən bu sistem əhalinin gündəlik ehtiyaclarına cavab verən inzibati xidmətləri şəffaf və sürətli şəkildə təqdim etməyə nail olmuşdur. Lakin bu struktur əsasən e-dövlət çərçivəsində idarəetmənin optimallaşdırılmasına fokuslanır və e-demokratiya komponentləri, yəni qərar qəbuletmədə vətəndaş iştirakının artırılması hələ kifayət qədər inkişaf etməmişdir [5]. E-demokratiyanın Azərbaycanda inkişaf etdirilməsi üçün bir sıra hüquqi, texnoloji və mədəni faktorlar nəzərə alınmalıdır:

**Hüquqi baza:** Elektron petisiyaların hüquqi nəticəyə malik olması, e-səsvermənin qanuni olaraq tanınması və rəqəmsal müzakirələrin qərar qəbuletmədə təsirli olması üçün normativ hüquqi aktlara ehtiyac var. Hazırda mövcud qanunvericilik bu imkanları tam əhatə etmir.

**İnstitusional çeviklik:** Dövlət orqanları və bələdiyyələrin informasiya axınını və vətəndaşla qarşılıqlı əlaqəni təmin edən rəqəmsal platformalara sahib olmaması və ya onların qeyri-aktivliyi e-demokratiya modelinin yayılmasını çətinləşdirir.

**Texnoloji infrastruktur və media savadlılığı:** Vətəndaşların texnoloji imkanlara çıxışı və rəqəmsal savadlılığı da bu prosesin effektivliyinə birbaşa təsir göstərir. Xüsusilə regionlarda internet infrastrukturu və vətəndaşların e-hüquq anlayışları hələ də zəifdir.

**Sosial etimad və legitimlik:** Rəqəmsal iştirak mexanizmlərinin işləməsi üçün yalnız texniki deyil, eyni zamanda ictimai etimad bazası vacibdir. Dövlətin informasiya siyasəti, açıq məlumatların paylaşılması və siyasi təşəbbüslərin ictimai monitorinqi bu etimadı formalaşdıran əsas komponentlərdir.

Bununla belə, bəzi pilot təşəbbüslər mövcuddur. Məsələn, bəzi bələdiyyələr səviyyəsində keçirilən onlayn ictimai sorğular, rəqəmsal müraciət formaları və sosial şəbəkələr vasitəsilə interaktiv əlaqə təşəbbüsləri qeyd olunmalıdır. Lakin bu mexanizmlər sistematik deyil və hələki hüquqi nəticə doğurmur.

## NƏTİCƏ

Elektron demokratiya informasiya texnologiyalarının sürətlə inkişaf etdiyi XXI əsrdə ənənəvi siyasi idarəetmə modellərinə alternativ və ya onları tamamlayan yeni bir yanaşma kimi ortaya çıxmışdır. Xüsusilə qərarvermə proseslərinə vətəndaşların birbaşa və daha fəal şəkildə cəlb olunması, şəffaflığın artırılması və inzibati effektivliyin təmin olunması baxımından elektron demokratiya müasir siyasi idarəetmənin ayrılmaz komponentinə çevrilmişdir. Bu yeni fenomen təkcə texnoloji deyil, eyni zamanda dərin siyasi və sosial transformasiyaları da ehtiva edir. Aparılan təhlillər göstərir ki, e-demokratiya vətəndaşların dövlət siyasətində iştirak imkanlarını genişləndirməklə bərabər, siyasi legitimliyin və ictimai etimadın artırılmasında da mühüm rol oynayır. Beynəlxalq təcrübədə Estoniya, İsveçrə və Cənubi Koreya kimi ölkələrin bu sahədə əldə etdiyi uğurlar bu modelin praktik olaraq işlək və faydalı olduğunu sübut edir. Eyni zamanda bu təcrübələr göstərir ki, uğurlu elektron demokratiya yalnız texnologiyanın tətbiqi ilə deyil, hüquqi çərçivənin, siyasi iradənin və ictimai savadlılığın da mövcudluğu ilə birbaşa bağlıdır.

Azərbaycanda elektron idarəetmə və rəqəmsal dövlət quruculuğu istiqamətində son illərdə ciddi irəliləyişlər müşahidə olunur. “ASAN xidmət” modeli, elektron hökumət portalı və müxtəlif rəqəmsal xidmətlər vətəndaşlara daha sürətli, şəffaf və əlçatan inzibati imkanlar təqdim etməklə yanaşı, siyasi proseslərə dolayısı və ya birbaşa təsir etməyə başlamışdır. Bununla belə, e-demokratiyanın tam potensialının reallaşdırılması üçün hələ görülməli işlər qalmaqdadır. Bunlara vətəndaş iştirakçılığının təşviqi, rəqəmsal savadlılığın artırılması, normativ-hüquqi bazanın təkmilləşdirilməsi və texnoloji infrastrukturun bütün bölgələrdə bərabər səviyyədə inkişafı daxildir.

Sonda qeyd etmək olar ki, elektron demokratiya Azərbaycanın siyasi idarəetmə sistemində şəffaflıq, iştirakçılıq və hesabatlılığın yeni səviyyəyə çatdırılmasında mühüm alətə çevrilə bilər. Lakin bu imkanlardan maksimum səmərə ilə faydalanmaq üçün sistemli yanaşma, strateji baxış və vətəndaşlarla dövlət arasında güclü rəqəmsal körpülərin qurulması zəruridir. Bu isə, yalnız texnologiyaya deyil, həm də demokratik dəyərlərə və siyasi mədəniyyətə əsaslanan bir inkişaf yolu tələb edir.

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Dahl, R. A. (1998). On Democracy. Yale University Press.*

*2. Coleman, S., & Blumler, J. G. (2009). “The Internet and Democratic Citizenship: Theory, Practice and Policy”. Cambridge University Press.*

*3. Castells, M. (2013). “Communication Power”. Oxford University Press.*

*4. United Nations E-Government Survey (2022). “The Future of Digital Government”. https://publicadministration.un.org/*

*5. Əlizadə, M. (2021). “Elektron idarəetmənin siyasi aspektləri”, Dövlət və Cəmiyyət, №3, s. 45-59.*

*6. Qasımov, A. (2022). “Azərbaycanda rəqəmsallaşma siyasəti və onun hüquqi əsasları”, Hüquq və Siyasət, №2, s. 78-89.*

*7. OECD (2020). “Digital Government in the Service of Citizens: Azerbaijan”. https://www.oecd.org/*

*8. Shirky, C. (2008). “Here Comes Everybody: The Power of Organizing Without Organizations”. Penguin Press.*

*9. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 14 mart tarixli Fərmanı ilə təsdiq edilmiş “2018–2025-ci illər üçün Rəqəmsal Transformasiya Strategiyası”.*

**Turan Yusubov,**
***Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutunun doktorantı***
***turanyusubov088@gmail.com***

## XÜLASƏ

Bu məqalədə elektron demokratiya anlayışının nəzəri əsasları və müasir dövrdə siyasi idarəetməyə təsiri təhlil olunur. E-demokratiya informasiya-kommunikasiya texnologiyalarının tətbiqi ilə vətəndaşların qərarvermə prosesində daha fəal iştirakını təmin edən yeni bir idarəetmə forması kimi təqdim edilir. Məqalədə elektron idarəetmənin funksional mexanizmləri, onun səmərəlilik göstəriciləri və demokratik institutlarla əlaqəsi geniş şəkildə izah olunur. Müxtəlif ölkələrin elektron demokratiya sahəsindəki təcrübələri müqayisəli təhlil edilir və bu sistemin ictimai şəffaflıq, hesabatlılıq və vətəndaş iştirakı baxımından üstünlükləri vurğulanır. Azərbaycanın elektron demokratiya istiqamətində atdığı addımlar, qəbul olunan hüquqi-normativ sənədlər və tətbiq olunan texnoloji həllər üzərində xüsusi dayanılır. Məqalənin sonunda Azərbaycanda e-demokratiyanın gələcək inkişafı üçün tövsiyələr verilir.

**Açar sözlər:** *elektron demokratiya, siyasi idarəetmə, informasiya texnologiyaları, vətəndaş iştirakı, Azərbaycan.*

**Turan Yusubov,**
***PhD candidate at the Institute of Philosophy and Sociology, Azerbaijan National Academy of Sciences***
***turanyusubov088@gmail.com***

## SUMMARY

This article analyzes the theoretical foundations of e-democracy and its impact on modern political governance. E-democracy is presented as a new form of governance that enhances citizen participation in decision-making through the use of information and communication technologies. The functional mechanisms of electronic governance, its effectiveness, and its relationship with democratic institutions are thoroughly discussed. Comparative analysis of international experiences in e-democracy highlights the benefits of such systems in terms of transparency, accountability, and civic engagement. Special emphasis is placed on Azerbaijan's progress in implementing e-democracy, including relevant legal frameworks and technological solutions. The article concludes with recommendations for further development of e-democracy in Azerbaijan.

**Keywords:** *e-democracy, political governance, information technologies, citizen participation, Azerbaijan.*

**Туран Юсубов,**
***докторант Института Философии и Социологии Национальной Академии Наук Азербайджана***
***turanyusubov088@gmail.com***

## РЕЗЮМЕ

В данной статье рассматриваются теоретические основы электронной демократии и её влияние на современное политическое управление. Электронная демократия представлена как новая форма управления, способствующая более активному участию граждан в процессе принятия решений с помощью информационно-коммуникационных технологий. Подробно анализируются функциональные механизмы электронной демократии, её эффективность и связь с демократическими институтами. Сравнительный анализ международного опыта подчеркивает преимущества электронной демократии в аспектах прозрачности, подотчетности и гражданского участия. Особое внимание уделяется шагам, предпринятым Азербайджаном в области внедрения электронного управления, включая нормативно-правовую базу и технологические решения. В заключение представлены рекомендации по дальнейшему развитию электронной демократии в Азербайджане.

**Ключевые слова:** *э-демократия, политическое управление, информационные технологии, участие граждан, Азербайджан.*